**AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ**

**ƏMR**

**21 fevral 2025-ci il** **3-15/3-2-104/2025**

**Azərbaycan Respublikası energetika nazirinin bəzi əmrlərində dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurasının Katibliyinin yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası energetika nazirinin 2018-ci il 5 fevral tarixli 18 nömrəli Əmrinin 1-ci hissəsi ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Energetika Nazirliyinin Apellyasiya Şurasının Katibliyinin tərkibi aşağıdakı redaksiyada verilsin:

**Katibliyin rəhbəri:**

| | |
|---|---|
| Əzizə Cəfərova | Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Ümumi şöbəsinin Vətəndaşların qəbulu işinin təşkili sektorunun böyük məsləhətçisi. |

**Katibliyin üzvləri:**

| | |
|---|---|
| İlknur Əhmədov | Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Ümumi şöbəsinin Vətəndaşların qəbulu işinin təşkili sektorunun aparıcı məsləhətçisi; |

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ
İmzalayan şəxs: Pərviz Şahbazov / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/DHW6yRG1TLZLdtGTRKiPETZ0mtUXryRABIN%2FtZId7Zg%3D

| | |
|---|---|
| Həsən Həsənli | Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparatının Hüquq şöbəsinin məsləhətçisi. |

2. “Əsas vəsaitlərin silinməsi üzrə ləğvetmə komissiyasının yaradılması barədə” Azərbaycan Respublikası energetika nazirinin 2021-ci il 5 may tarixli F-41 nömrəli Əmrinin 1-ci hissəsinin “Komissiyanın üzvləri” bölməsində “Mürvət Babayev Hüquq şöbəsinin müdir müavini” sözləri “İbrahim Ağayev Hüquq şöbəsinin müdiri” sözləri ilə əvəz edilsin və həmin hissədən “Fazil Məmmədov Təminat şöbəsinin müdiri;” sözləri çıxarılsın.

3. “Azərbaycan Respublikası Energetika Nazirliyi tərəfindən göstərilən xidmətlərlə bağlı sorğuların keçirilməsi və sorğu formasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası energetika nazirinin 2022-ci il 29 iyul tarixli F-83 nömrəli Əmrinin 3-cü hissəsində “müdiri Azər Rzayev” sözləri “böyük məsləhətçisi Əzizə Cəfərova” sözləri ilə əvəz edilsin.

4. “İşçi qrupların yaradılması barədə” Azərbaycan Respublikası energetika nazirinin 2022-ci il 27 oktyabr tarixli F-108 nömrəli Əmrində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci hissənin “İşçi qrupun rəhbəri” bölməsində “İsmayıl Hümbətov” sözləri “Zülfiyyə Namazova” sözləri ilə əvəz edilsin və “İşçi qrupun üzvləri” bölməsindən “Zülfiyyə Namazova - Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İqtisadi təhlil, tarif və statistika şöbəsinin müdir müavini;” sözləri çıxarılsın;

4.2. 5-ci hissədə “Strateji planlaşdırma və innovasiyalar” sözləri “Dövlət proqramları və strateji inkişaf” sözləri ilə əvəz edilsin.

5. “Azərbaycan Respublikasının Energetika Nazirliyində görmə və hərəkət pozuntuları (məhdudiyyəti) olan əlilliyi olan şəxslər üçün xidmətlə bağlı məlumat verən və onların xidmət almasına kömək edən məsul əməkdaşların ayrılması haqqında” Azərbaycan Respublikası energetika nazirinin 2024-cü il 29 noyabr tarixli 3-15/3-2-742/2024 nömrəli Əmrinin 1-ci hissəsində “müdiri Azər Rzayev” sözləri “böyük məsləhətçisi Əzizə Cəfərova” sözləri ilə əvəz edilsin.

6. Ümumi şöbə bu əmrin surətinin aidiyyəti olanlara çatdırılmasını təmin etsin.

7. Əmrin icrasına nəzarət nazir müavini Samir Vəliyevə həvalə edilsin.

**Nazir** **Pərviz Şahbazov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ
İmzalayan şəxs: Pərviz Şahbazov / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.asan.gov.az/info/esign/DHW6yRG1TLZLdtGTRKiPETZ0mtUXryRABIN%2FtZId7Zg%3D